# ÖNCƏ VƏTƏN

## ANA YURD

Odum, közüm yurdum,
Gülən üzüm yurdum,
Görən gözüm yurdum,
Ürək sözüm yurdum!
Döyüşdə tək qalsa,
Vuran ürək qalsa,
Çəkilməz arxandan
Rəfiq Zəka Xəndan.

Ulus bir incindir,
Sənin güvəncindir,
Ömür sevincindir,
Bir odlu gəncindir,
Vurar, yaxar, dağlar,
Alovlanar, çağlar.
Qalıb Oğuz xandan,
Rəfiq Zəka Xəndan.

Sayın deyildir az,
Qopuz, davul, ud, saz,
Dinincə parlar yaz,
Ölüncə ayrılmaz
Koroğludan qalmış,
Qıratla hay salmış
Qılıncla qalxandan,
Rəfiq Zəka Xəndan.

Çağıldayan türkü
Oğulların görkü.
Başında yox börkü,



İçində yox ürkü,
İnanmasan, qorxud!
Mənim dədəm Qorqud.
Olubmu qorxandan,
Rəfiq Zəka Xəndan?!

*1985*

## ULUSUM MƏNİM

Ey şair ürəkli ulusum, mənim,
*Ey Ayım, Günəşim, ulduzum mənim!*

Nurunla canlanır can gülüstanım!
Sənin tarixindir ömür dastanım!

Məcnunun olmuşam, Leylim sənindir,
Qələmim, ilhamım, şerim sənindir!

Sənə min könüldən aşiq olmuşam,
Min candan eşqinə sadiq olmuşam.

Vicdanın ilahi, kamalın ülvi,
Gözə görünməyən camalın ülvi.

Daima hüsnünü arar-gözlərim,
Sənin sözlərindir mənim sözlərim.

Mən ki, dil açmışam sənin dilində,
Bir çocuq kimiyəm sənin əlində.

Laylan, sazın, türkün, ağın, bayatın
Yaşamaq zövqüdür mənə həyatın.

Ey əzəli dahi, əbədi dahi,
Gözümdə hər şeydən sənsən ilahi!

Sən mənə öyrətdin bu dünya nədir,
Varlığın nə qədər dahiyanədir!

Bu ucsuz-bucaqsız mavilik sənin,
Ululuq sənindir, ülvilik sənin!

İldırım sənindir, şimşək sənindir,
Aləmə sığmayan istək sənindir.

Soruş, nə deməkdir ulus, özündən,
Ulu sözündəndir, ulu sözündən!

Ömrümü, günümü sənə borcluyam,
Canımı versəm də, yenə borcluyam!

Çiynimdə yükün var, şərəfdir bu yük,
Nə var yer üzündə ulusdan böyük?!

Sənə xidmətimdir mənim xidmətim,
Düşüncəm, xəyalım, eşqim, həsrətim.

Şəfəqin, şəfqətin, ayazın gözəl,
Yazın, yayın gözəl, payızın gözəl!

Könül alovlanır ilıq qışında,
İçim qürbət olar, olsam dışında.

Mənim atam səndə, anam səndədir,
Ruh səndə, güc səndə, inam səndədir.

Düşmənə tuşlanan silahım sənin,
Dünənim, bu günüm, sabahım sənin!

Könüldə ovqatım sənin deyilmi?
Ovqatım, sovqatım sənin deyilmi?

Sənliyin deyilmi şənliyim mənim?
Sənindir varlığım, mənliyim mənim!

Mənim ki, mənliyim sənsiz yetimdir,
Yetimin qisməti ölüm-itimdir!



Qılıncam, qınımdan çətin sıyrılam,
Çətin bu dünyada səndən ayrılam!

Sənin oban qədim, elin qədimdir,
Ruhunu yaşadan dilin qədimdir.

Nə zaman doğmusan, söyləmək çətin,
Bəlkə yaşıdısan əbədiyyətin!

Yaşını kim bilir dağın, ormanın,
Torpağın, havanın, gölün, ümmanın?!

Yaşını kim bilir yerin, səmanın?
Gəlib rüzgar kimi keçən zamanın?!

Nə zaman doğmusan, söyləmək çətin,
Kim bilir yaşını əzəliyyətin?!

Gündüzlər üzünə günəş gülümsər,
Gecələr Ay, ulduz səni mənimsər.

Sən Ayım, Günəşim, ulduzum mənim,
Kainat ömürlü ulusum mənim!..

*1984*

## YELKƏN

Dənizdə tufan qopub,
Hər dalğa bir dağ kimi.

Kiçik qayıq sularda
Oynar oyuncaq kimi.

Təslim olmayanmı var
Min başlı əjdahaya?!

Qayıq ağ yelkənini
Açıb ağ bayraq kimi...

## ÜZEYİRBƏY

Azərbaycan xalqının gözüdür Üzeyirbəy,
Musiqi aləminin sözüdür Üzeyirbəy.
O, ata türkümüzdür, o, ana laylamızdır,
Əbədi ruhumuzun özüdür Üzeyirbəy!

## FÜZULİ

Ey Füzuli, adınla iftixar eylərik biz,
Bir şair tuta bilməz sənətin tutan yeri!
Nurlu şeirlərini zülmətdə söylərik biz,
Gözlərimiz önündə işıqlanar dan yeri!

* * *

Ana yurda yasaq olar ömürlük
Yad ellərdə, yad ollərdə qalanlar.
Ulusundan uzaq olar ömürlük
Ana dili yabançı dil olanlar.

* * *

Bir sabah bir salıq yayılmalıdır,
Dəyişir hər nə var, dönür hər şey.
Duyuram mən ki, bir şey olmalıdır,
Ola bilməz ki, olmasın bir şey.

*1984*

* * *

Ana dili ana yurda bağlıdır,
Ana dilin aynasıdır ana yurd.
O yurddaş ki, ulusunun oğludur,
Ölənədək yasaq olmaz ona yurd.



* * *

Füzuli günəşini görməyənin gözü yox,
Onun ruhu ulusa, ölkəyə can deyilmi?

Füzuli atəşinə uymayanın közü yox,
Divanı alov-alov hiss, həyəcan deyilmi?

Füzuli türküsündə Azərbaycan sözü yox,
Füzuli başdan-başa Azərbaycan deyilmi?!

## SEVİRƏM

Sevirəm mən sevən insanları, candan sevirəm,
Sevgi dünyasına könlüm göz açandan sevirəm.

Onların mənliyi şəfqətlə gülümsər sanki,
Onlar insanlığı rəğbətlə mənimsər sanki.

Onların ömrü şəfəq dalğalı bir mavi dəniz,
Onların könlü çocuq könlü qədər saf, ləkəsiz.

Sevirəm mən sevən insanları, candan sevirəm,
Ruhuma sevgi həyat nuru saçandan sevirəm.

Sevən insanlar ədavət nə deməkdir, bilməz,
Onlar əlbəttə ki, nifrət nə deməkdir, bilməz.

Oyanıq duyğuları, hissləri qəflətdə deyil,
Bəxtiyar olmasa da, heç biri bədbəxt də deyil!

Sevirəm, sevgiyə layiq yaranıb onlar axı,
Aləmi sevməyə bilməz sevən insanlar axı.

Sevə bilsəydi ölüm, qan diləyən nadanlar,
Yer üzündə açılardı qapanan zindanlar.

Sevə bilsəydi bu dünyada bütün insanlar,
Durulardı savaş uğrunda daşan vicdanlar!

*1985*

## YURDUM

Seyranım onun, seyrim onundur,
Dünyada səfam, xeyrim onundur.

İlhamım onun, şerim onundur,
Fəxr eylərəm aləmdə adıyla!

Yurdumda sevincim bu ulusdur,
Ən şanlı güvəncim bu ulusdur!

Yurddaşlar ulussuz ucalarmı,
Bir özgə ulusdan güc alarmı?

Gənclikdir o, gənclik qocalarmı?
Sevgim bürünür nura oduyla?

Əfsanəli gəncim bu ulusdur!
Ən şanlı güvəncim bu ulusdur!

Bir yol ki, bu yol, yolçu sapılmaz,
Bir zirvə ki, əllərlə çapılmaz!

Ondan ulu bir inci tapılmaz,
Parlar yaşamaq zövqü dadıyla!

Könlümdəki incim bu ulusdur,
Ən şanlı güvəncim bu ulusdur!

*1983*

## CAVİD XİYABANI KÖNLÜMDƏN KEÇİR

Gözümü sənətə açandan bəri,
Cavid prospekti könlümdən keçir!
Keçir irmaq kimi ömrün illəri,
Könlüm arzular ki, şəhərimizdə,
Bir aləm açıla nəzərimizdə,



Sevgili ustadın adına layiq,
Ruhuna, eşqinə, oduna layiq,
Bir küçə görünə, geniş bir küçə,
Könüllər açıla seyr eylədikcə.
Görələr yolçular necə şən keçir,
Cavid prospekti könlümdən keçir!

Cavid prospekti könlümdən keçir,
Keçirəm Bakının əlvan, işıqlı,
Saysız çil-çıraqlı, yar-yaraşıqlı,
Bağçalı, çiçəkli küçələrindən.
O bərli, bəzəkli küçələrindən,
Keçir göz önümdən dürlü soyadlar,
Çeşidli ünvanlar, çeşidli adlar.
Birinin adına bir neçə ünvan,
Tarixdə yer almış ixtiyar cavan.
Burdan şəfəq doğur ordan çən keçir,
Cavid prospekti könlümdən keçir!

Hünəri bəllidir hünərçilərin,
Quba meydanında alverçilərin
Gizlində, açıqda bazar açdığı,
Milisgörəndə qoyub qaçdığı
Kiçik bir küçəyə böyük şairin,
Adını verəndən nə gözləyəsən?

Yeri olmalıdır hər cavahirin,
Axı cavahiri gərək duyasan,
Gərək kafalara ağıl qoyasan,
Gərək duyğuları çözələyəsən.

Sayıqlara alqış, kütlərə nifrət!
Adam var fikrindən vəzifə, şöhrət,
Adam var fikrindən el, vətən keçir,
Cavid prospekti könlümdən keçir!

Cavid prospekti könlümdən keçir,
Yuxumda keçirəm ondan hər gecə,

Hər sabah ovqatım pozulur necə!
Dostlara deyirəm, dostlar deyir ki,
Gün o gün olsun ki, yuxun çin olsun!
Bu yuxu yozula bilən şeir ki,
Yozana dərd olur, dərd neçin olsun?!

Bu dərdi yozmağa ozan gərəkdir,
Yozulan yuxunu yazan gərəkdir,
Gözlərim yol çəkir qayğılarımla,
Düşüncələrimlə, duyğularımla,
Xəyalım xəyalı iqlimdən keçir,
Cavid prospekti könlümdən keçir!

Cavid prospekti könlümdən keçir,
Keçir göz önümdən olub-keçənlər,
Sənət dünyasından erkən köçənlər,
Keçir göz önümdən şanlı bir nəsil,
Keçir göz önümdən keçməyən bir il!

Bir aləm yaradıb öz əlləriylə,
İldırım avazlı əməlləriylə,
Şimşək şeirlərlə göz qamaşdıran,
Qartal oğullara dağlar aşdıran,
Yaxıb quzğunları, yıxıb leşləri,
Eyninə almayıb kəşməkəşləri,
Ölümdən adlayıb, yurda qayıdan,
O dahi sənətkar, o dahi insan.
Bir adi küçəyə layiq deyilmi?
O, yurda, ulusa aşiq deyilmi?
Ərənlər incini kəsəkdən seçər,
Ölümsüz diləklər həyata keçər,
Dahilər həyatı ölümdən keçir,
Cavid prospekti könlümdən keçir!

Cavid prospekti könlümdən keçir,
Könlümdə həyəcan qovğalanmada,
Qasırğalanmada, dalğalanmada,



Bu da bir sahilsiz ümid ümmanı,
Gəlsinlər, göstərim mən o ünvanı!

O ünvan dillərdən dillərə düşsün,
Dağlara, daşlara, sellərə düşsün!

Düşsün o əllər ki, səsası yoxdur,
Düşsün o başlar ki, sevdası yoxdur!

Ustadın eşqiylə aşıb-daşanlar,
Şeir söyləyənlər, nəğmə qoşanlar
Adlasın onunla yüzillikləri,
Yaşatsın bədii gözəllikləri!

Ucalsın ustadın şöhrəti, şanı,
Gəlsinlər, göstərim mən o ünvanı!
Ucalsın ulusun şair övladı,
Jurnallar, qəzetlər o əziz adı
Yaysın müjdə kimi hər nömrəsində.

Fəhlənin, kəndlinin, qoy süfrəsində
Hər gün o ustadın adı görünsün,
Fərəhli çöhrələr nura bürünsün.

Başımda bir Cavid prospekti var,
Qarşımda bir Cavid prospekti var.

Fikrimdən sehirli bir yelkən keçir,
Cavid prospekti könlümdən keçir!

Cavid prospekti könlümdən keçir,
Çapıram şerimin köhlən atında,
Qanadlı duyğular kainatında.

Səsimə səs verir Müşfiq küçəsi,
Açılır ümidli hisslər qönçəsi,
Açılır düyümlər üfüqlər kimi,
Gülür baxışlarda şəfəqlər kimi,

Açılır qarşımda nurlu bir küçə,
Nadir incilərlə dolu bir küçə!

Bir yanda Səyavuş, bir yanda Azər,
Əlləri qoynunda durub gülümsər.

Bir yanda Teymurləng, bir yanda Çingiz,
Bir yanda Peyğəmbər, bir yanda İblis.

Bir yanda Firdovsi, bir yanda Xəyyam,
Canlanır qarşımda bir neçə əyyam.

Canlanır qarşımda insan dağları,
Canlanır qarşımda Sayan dağları.

Ozanlar ozanı könlümdən keçir,
Cavid xiyabanı könlümdən keçir!

Cavid xiyabanı könlümdən keçir,
Ortada Cavidin nəhəng heykəli,
Yanır gözlərində sevinc məşəli.

Keçir bu xiyaban paytaxtımızdan,
Günəşli, çırağban paytaxtımızdan.

Qoynundan ərdəmli ərənlər keçir,
Könlünü ustada verənlər kecir.

Keçir bir novrağı seyrə gələnlər,
Qocalar, çocuqlar, qızlar, gəlinlər.

Dolur xiyabana mavi üfüqlər,
Gülür xiyabana qızıl səfəqlər.

Nə dumanlar keçir, nə çənlər keçir...
Başımdan sevdalar keçənlər keçir.

Ulu ustadların küçələrindən
Kecib nəfəs alır ellər dərindən.



Diləklər açılır gül-çiçək kimi,
Xəyala sığmayan bir gercək kimi,

Röyadan adlayır, xulyadan keçir,
Cavid prospekti dünyadan keçir!..

*1984*

## BU VƏTƏN TORPAĞIDIR

Bu vətən torpağıdır dövlətimiz, sərvətimiz!
Ayla, ulduzla gülümsər, bu ulus bayrağıdır!
Bu vətən torpağıdır qüdrətimiz, qeyrətimiz!
Bir ovuc töhfə verilməz, bu vətən torpağıdır!

## BİR ŞƏHİDİN DİLİNDƏN

Qollarımı qanırdılar burdular,
Ömrüm-günüm, canım-gözüm, anam, oy!..
Övladını yad ellərdə vurdular,
Qara geydi Qarabağım, sonam oy!..

## ƏRƏNLƏR

Can verib şan alan ərlər var Azərbaycanda,
Düşmənə odlu sipərlər var Azərbaycanda!

Varlığım yurda qul insanlara candan yardır,
Qurd ürəkli ulu qartallara göylər dardır!

Yağılar bağrını odla dəlir Odlar yurdu,
Qəhrəmanlarla bugün yüksəlir Odlar yurdu!

Yüksəlir, qumbaralardandır ulus daşlarımız,
Çəkinormi ulayanlardan ulusdaşlarımız?!

## YOLDADIR

Yoldadır insanın ömrünün yolu,
Sevgili dünyamız hər an yoldadır.
Güney şəfəq dolu, quzey çən dolu,
Yaylaq yol üstündə aran yoldadır.

Yollarda türkü var, saz var, aşıq var,
Min aləm, min büsat, min yaraşıq var,
Yolçu yolda gərək, yolda işıq var,
Zülmətin bağrını yaran yoldadır.

Dərdi yad ellərdə qərib bol çəkər,
Bu sözə qürbətdə qalan qol çəkər,
Bir aydır yollarda gözüm yol çəkər,
Ürəyim vətənə varan yoldadır.

*İspaniya, 1984*

## NUR İÇİNDƏ

Deyirdin: yurd mənimçin
Ömürlük ziynət olsun.

Ulus uğrunda ölsəm,
Bu cana minnət olsun.

Dedirdin: yadigarım
Ölümsüz sənət olsun.

Atam, yat nur içində
Məzarın cənnət olsun.

## AZƏRBAYCANI

Eşqiylə çırpınır ruhum hər zaman,
Bu yerlər aləmdə başqa bir aləm.

Dağlardan-dağlara keçən bir duman,
Çaylardan-çaylara düşən bir seləm.



Qarşımda canlanır gülüstan kimi,
Könlümün odudur, şerimin canı!

Ulusun qoşduğu bir dastan kimi
Mən əzbər bilirəm Azərbaycanı!

*İtaliya, 1984*

## QORXMA, OĞLUM

Səni çox aldadacaqlar, oğlum,
Çox yalanlar satacaqlar, oğlum!

Aldadıldıqca, özündən çıxma,
Aldanılmaqdan ömürlük qorxma!

Qorx sən aləmdə yalan satmaqdan!
Qorx sən insanları aldatmaqdan.

Kim yalan satdımı, alçalmalıdır,
Bir ilandır bu yalan, çalmalıdır!

## QARDAŞIM

Nə qədər qəribdir bu beytin, qərib,
İki bölünməkdən qorxan qardaşım!
Dinlə, ey o taydan bu taya gəlib,
Bu taydan o taya baxan qardaşım!

Ərlər dədəmizə Qorqud deyirdi,
Qorxan oğullardan deyildi Qorqud,
Adıyla, andıyla, "qorxud!" deyirdi.
Qorxud yağıları! – deyirdi Qorqud.

Qorqud nəvəsinə qorxmaq yaraşmaz,
Qorxduq ki, çatılıb iki bölündük.
Qorxduq ki, sərhəddə çevrildi Araz,
Qorxduq ki, quzeyə, güneyə döndük.

İşlər bu ovqatla çətin düzəlsin,
Ayrılıq az qala iki yüz ildir.
Deyirsən: "Azadlıq dalımca gəlsin..."
Azadlıq ardınca gələn deyildir!

Düşün Bağırxanı, an Səttarxanı,
İki bölünməkdən qorxan qardaşım!
Arxalı dağlara çevir arxanı,
Görərsən dağlardır arxan, qardaşım!

Arazla başlayır, Kürlə başlayır,
Ulu qaynaqlıdır türkümüz bizim.
Qılınc cəng edəndə, saz yavaşlayır,
Yadlardan olmayıb ürkümüz bizim.

Neyləyər meydana atılmayınca,
Çöpü də ikiyə bölmərəm – deyən,
Yaşasın, ulusu qurtulmayınca
Yaşamaram deyən, ölmərəm deyən!

İnam, ümid yoxsa, inan, yurd da yox!
Nə çıxar darıxıb karıxmağından?!
İki bölünməkdən qorxma əsla! Qorx,
Qorx, güney qardaşım, bu qorxmağından!..

*1984*

## YAŞAYACAQ BU DÜNYADA

Azərbaycan hökuməti
Yaşadırdı bu milləti,
Alçaqlar yoxa çıxardı
O yurda bağlı dövləti.

Getdi gözəl növrağımız,
Qara geydi bayrağımız,
Xıncaqlara, daşnaklara
Ortaq oldu torpağımız.



Yasımız bayram edildi,
Qəhrəmanlar ram edildi,
Azərbaycana can verən
Oğullar edam edildi.

Külə döndü minlərlə can,
Türkülərində həyəcan
Azərbaycan türkü dedi:
Azərbaycan, Azərbaycan!

Bağlayardı güldəstəsi
Uzeyirbəyin bəstəsi,
Yaxdı milli marşımızı
İşğalçılığın xəstəsi.

Minüzlülər satıldılar,
Min çirkaba qatıldılar,
Ulusun düşmənlərinin
Qucağına atıldılar!

Dağlar başı duman oldu,
Nə yardım, nə aman oldu,
Qəhrəmanlar güllələndi,
Satqınlar qəhrəman oldu.

Düşmənlərə səs verdilər,
Dostlara məhbus verdilər,
Cılız əqidələriylə
Yurddaşlara dərs verdilər.

Yox idi mərdi onların,
Nə idi dərdi onların?!
Ağalarının əliylə
Həpsi gəbərdi onların.

Lənətlərik xainləri,
Düşündükcə o günləri,
Nə məsələləri bizimdi,
Nə dilləri, nə dinləri.

O çağlar gəlincə yada,
Ulusum gəlir fəryada,
Yaşayacaq bu dünyada
Məmməd Əmin Rəsulzadə!

*1978*

## NİZAMİNİN "XƏMSƏ"Sİ

Öz dilində oxudum Sədini də, Qövsini də,
Oxudum zövq ilə Xəyyamı da, Firdovsini də,

Oxudum Hafizi də, hər birinin öz yeri var,
Fars dilində oxudum "Xəmsə"ni təkrar-təkrar

Anladım, dahi Nizami kimi ustad yoxdur,
Yer üzündə bu ada üstün olan ad yoxdur!

Qavradım, dahi Nizami bizə candan məhrəm,
Söylədim hər əsərindən açılır bir aləm.

Çırpınan ud kimi bir türkü qoşur, titrəyir o
"Türkəm, ancaq bu həbəşlər məni qanmır" deyir o.

O, bizimdir, biz onun, yadlar onu yad bildi,
Necə yaddır ki, Füzuli onu ustad bildi?!

Onu candan yaşadan öz obası, öz elidir,
Gəncəvi söyləməyək, Gəncəlidir, Gəncəlidir!

*1985*

## TÜRKOBA

Masallıda bir oba var, Türkoba,
Bu obaya ad qoyana mərhəba!



## İŞIQ

Günəşin, ulduzun, Ayın işığı
Gecənin, gündüzün yar-yaraşığı

## ŞERİM

Şerim, ey varlıqda bir parçam mənim,
Sənsən yer üzündə tanrıçam mənim!

## ƏN SEVDİYİ

Yurd dahi Nizaminin özüydü,
Xalqın açıq alnı, ağ üzüydü.
Hər şerini farsca yazdı, doğru,
Ən sevdiyi sözsə Türk sözüydü.

## DEYƏNƏ

Mən, yurddaşımdır deyirəm,
Yurduma anam deyənə.
Qan qardaşımdır deyirəm,
Mən oğuzdanam! – deyənə.

Susun, yabançılar susun,
Yaman diliniz qurusun!
Canım qurban bu ulusun
Canına canım deyənə.

Qəlbim atır türküsündə,
Gecəsində, gündüzündə,
Nə mutlu bu yer üzündə
Bu ulusdanam! – deyənə!..

* * *

Sən güclüsən, ey dost, sənə yurdun inanırsa,
Könlündə, gözündə ulusun eşqi yanırsa!

* * *

Mutludur yurdunun eşqiylə dolan yurddaşlar,
Qəhrəman bir ulusun oğlu olan yurddaşlar.

## QARABAĞDA

Əfsanə gözəlliklərə uydum Qarabağda,
Bir kimsə deməz ki, cana doydum Qarabağda,
Ən nəşəli hisslərlə doluydum Qarabağda,
Candan vurulub, qəlbimi qoydum Qarabağda,
Mən bir Üzeyir türküsü duydum Qarabağda.

Bir dadlı diyardır, ulu sevdalı diyardır,
Aləmdə bir aləmlə dolu aləmi vardır,
Bir nəğməli gülşəndir o, bir canlı bahardır,
Başdan-başa əfsanə gözəlliklərə yardır,
Əfsanə gözəlliklərə uydum Qarabağda.

Bir sevgi ki, yazmaqla, deməklə başa çıxmaz,
Şairlənən, əlbəttə bu yerlərdə darıxmaz,
Bir zəlzələ bir gün bu mətin dağları yıxmaz,
İlhamı olan yolçuların ruhunu sıxmaz,
Bir kimsə deməz ki, cana doydum Qarabağda.

Bağlarda uçan quşlar ətirlərlə tütərdi.
Andıqca ötən günləri bülbüllər ötərdi,
Daldıqca unutdum orada qüsseni, dərdi,
Duyduqlarımın nəşəsi bir ömrə yetərdi,
Ən nəşəli hisslərlə doluydum Qarabağda.



Tarixi ərənlər yaşadırlar, aradırlar,
Dünyanı quranlar, yaradanlar yaradırlar,
Gördüm Qarabağ qızlarını ayparadırlar,
Saçlar qara, qaşlar qara, gözlər qaradırlar,
Candan vurulub, qəlbimi qoydum Qarabağda.

Yadlardan əsər yox, nə qədər doğma seyirdir,
Gördüklərim orda bərəkət, orda xeyirdir,
Bir musiqi şəklində olan incə şeirdir,
Orda hara getsən, hara baxsan, Üzeyirdir,
Mən bir Üzeyir türküsü duydum Qarabağda.

*1984*

* * *

Atasız, anasız qalsam da, oğlum,
Qanımda qaynayan gerçək inamdır.
Mənim atam da var, anam da, oğlum,
Ulusum atamdır, yurdum anamdır!

## ULUSUN DİLİ

Mərmiyə çevrilib qələm əlimdə,
Efirdə səslənir ulusun dili.
Mənim ulusuma mənim dilimdə
Böhtanlar atanın qurusun dili...

## QƏZƏL

Sənsən eşqim, dinim, imanım mənim,
Ən böyük, ən ülvi loğmanım mənim,

Hər bəlamın intizarı sənmisən,
Sənmisən hər dərdə dərmanım mənim?!

Göstərərdim hüsnünü hər ölkəyə,
Ölkədə olsaydı imkanım mənim.

Göy üzündə hər nə gördüm səndədir,
Yer üzündə səndədir şanım mənim.

Kainatda Ay sənin, ulduz sənin,
Sən günəşdən nurlu vicdanım mənim.

Qoynun olmuş sayrışanlar qaynağı,
Sönməyən ruhu çırağbanım mənim.

Bircə gün ömr eyləməz sənsiz Zəka,
Ey Azərbaycanım, ey canım mənim!..

*1989*

## TƏBRİZ, GÖZƏLİM TƏBRİZ

Bir vaxt çocuğun oldum,
Sevginlə sənin doldum,
Sənsiz saralıb soldum,
Sənsən öz elim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

Can yandı xəyalınla,
Eşqinlə, məlalınla,
Kaş, bir də vüsalınla
İlhama gəlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

Gendən baxaram, gendən,
Çıxmaz Arazım çəndən,
Dünya dağıla, səndən
Əl çəkməz əlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!



Bir də səni görməzsəm,
Hicranı bitirməzsəm,
Bir müjdə gətirməzsəm,
Sanma düzəlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

Qalmış Savalan bax, tək,
Düşmən gülür alçaqtək,
Qoy, bağrını mizraqtək
Qoşqarla dəlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

Bitsin bu əzan bir gün,
Coşsun bir ozan bir gün,
Getməzsə xəzan bir gün,
Getməz xəzəlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

Sən bir ulu niyyətsən
Başdan-başa ziynətsən
Sonsuz əbədiyyətsən,
Sənsən əzəlim, Təbriz
Təbriz, gözəlim Təbriz.

Cəlladlar əyilməzsə,
Matəm günü ölməzsə,
Bayram günü gəlməzsə,
Gəlsin əcəlim, Təbriz,
Təbriz, gözəlim Təbriz!

*1985*

## "FÜZULİ KANTATASI"

Səslənir Cahangirin "Füzuli kantatası",
Kükrəyir qasırğası udun, qopuzun, tarın,
Könüllərdə canlanır canlı əksi-sədası
Bir bəstəkar şairin, bir şair bəstəkarın.

Oyadır ulusunu Füzulinin fəğanı,
Məcnunun ahu-zarı dağı-daşı yandırır.
İlahi bir sevginin umulmaz ərməğanı
Oyaq düşüncələrdə ulduzlar oyandırır.

Uzaq məsafələrdə ildırımlar aylanır,
Gözləri qamaşdırır şimşəklərin məşəli.
Qoşqarın zirvəsindən Savalana boylanır
Peyğəmbər sənətkarın kəhkəşandan heykəli.

Qalxır bir günəş kimi şairlərin atası.
Şəfəqlərmi süslənir, ümidlərmi bəslənir?!
Səslənir Cahangirin "Füzuli kantatası",
Füzuli qüdrətiylə gələcəyə səslənir!

Səslənir hər akkordda duyğuların nidası,
Ürəyində oxuyur ellər müğənni kimi.
Səslənir Cahangirin "Füzuli kantatası",
Üzeyir dünyasının Füzuli himni kimi.

Tarixin sınağından çıxan bir imtahandır,
Bu musiqi şerimi, ya şeir musiqisi?!
Füzuli şeriyyəti cahanda bir cahandır.
Cahanda bir cahandır Cahangir musiqisi.

*İstanbul, 1984*

## AZƏRBAYCAN TÜRKÜSÜ

Bir türkü var canım Odlar yurdunun
Rüzgarında, dalğasında, selində.
Mən bu yurdun dönə-dönə olmuşam
Şirvanında, Muğanında, Milində.

Şəhidləri güvəncidir sağların,
Sayı yoxdur bağrındakı dağların,
Bir məlhəm var bağçaların, bağların –
Yarpağında, çiçəyində, gülündə.



Min mahala yetər onun sərvəti,
Həsrətində soydaşlarla ülfəti,
İllər boyu türkülənir xiffəti
Xəyalında, ürəyində, dilində.

Sabahına hər gün umud bağlayar,
Öz əliylə öz köksünü dağlayar,
Ayrılıqdan gözyaşları çağlayar –
Dənizində, irmağında, gölündə.

Yağılara necə sinə gərməsin?!
Doğmalara necə könül verməsin,
O istər ki alçaqları görməsin –
Şəhərində, obasında, elində.

## ANA YURDUM

Azərbaycan, işıqlısan, genişsən,
Yerin, havan, suyun, odun uludur.
Ulusunun varlığında günəşsən,
Sevənlərin işıqlarla doludur.

Saya gəlməz dağın, gölün, ormanın,
Sayrı olmaz torpağına bağlılar.
Çiçəklərin dərmanıdır dərmanın,
Qoxladıqca yoxa çıxar ağrılar.

Sənin ana qucağına varanlar
Sevincindən irmaq kimi çağlayar,
Dədə Qorqud ocağına varanlar
İgidlərin oylağına uğrayar.

Azərbaycan, can vermişik adına,
Canımızdır adındakı can sənin,
Nə mutludur tutuşanlar oduna,
Qayğı sənin, sayğı sənin, san sənin.

Geniş dilin günəş dili sayılmış,
Ola bilməz qaranlığın, darlığın.
Axınlarla yer üzünə yayılmış
Dilin sənin varlığındır, varlığın.

Sevincimiz, güvəncimiz bəsindir,
Könlümüzdə ərənlərin türküsü,
Səsimizdə dalğalanan səsindir,
Sovuşarmı yağıların ürküsü?!

O ərlər ki, qopuz duyar, saz anlar
Dalğalanar dalğa-dalğa selinlə.
Dilə gələr dağ vuqarlı ozanlar
Aydan arı, sudan duru dilinlə.

Öz dilinə yasaq dillər qurusun,
Alçaqların ürəkləri dönükdür.
Sənin kimi ərdəmlidir ulusun,
Sənin kimi ulusun da böyükdür!

Şairlərin qonuşmada sanından,
Deyilməklə, yazılmaqla bilinməz.
Ulu adın ulusların yanından
Qazılmaqla, pozulmaqla silinməz!

Yalnız sənin adın olub andımız,
Keçmişinlə güvənməyək neçin də?!
Sıra-sıra dağlarındır ardımız,
Ulduzlar var o dağların içində!

Azərbaycan, ata ocaq, ana yurd,
Uğurların ovqatına yar sənin.
Ürəkləri ovunduran odsan, od,
Qurd ürəkli oğulların var sənin.

Axıb keçər üzərindən zaman hey,
Çaxıb keçər ildırımlı çay kimi.
Baxıb keçər dağlarından duman hey,
Parlayarsan ulduz kimi, ay kimi.



## AĞLAYAR

Kişilər ağlamaz, deyirsən mənə,
Qadınlar edəndə zülüm, ağlayar.

Ağlayar çəkəndə dağ sinəsinə,
Həyatı olanda ölüm, ağlayar.

Kişilər ağlamaz deyirsən mənə,
Ruhu ağrayanda, gülüm, ağlayar!

Gözümdən könlümü baxıb görsənə,
Gözümdə yaşmı var, könlüm ağlayar.

*1986*

## SONSUZ

Sonsuzluğu olmuş arayanlar gələcəkdə,
Keçmiş kimi sonsuzdur əzəldən gələcək də.

*1970*

## YAŞAYAR

Varlığın dərdini ərdəmli ərənlər daşıyar,
Dərd nədir anlamayan cingənə yüz il yaşayar.

*1964*

## YOXDUR ƏZİZİM

Biri ac, o biri toxdur, əzizim,
Çox da od çox yerdə çoxdur, əzizim,
Hava hər yerdə var, su hər yerdə var,
Çöräksə hər yerdə yoxdur, əzizim...

*1986*

## KÖTÜK

Azmıdır yurdumda canlı kötüklər?!
Satqınlar ulusu hər zaman satır.

Torpağın üstündə gəzir düdüklər,
Torpağın altında şəhidlər yatır,

*1986*

## QÜRBƏT ELDƏ

Könlümdə, gözümdə duman durubdur,
Sanıram keçməyir zaman, durubdur.

Bu qürbət aləmi dərdli bir aləm,
Ömrüm uzanmışmı, nədir də, bilməm!

Böylə uzanmasın ömrü heç kəsin,
Otağım eynidir soyuq məhbəsin.

Gündüz, qış günündə, necə uzanmış,
Gündüzə qarışan gecə uzanmış.

Uzanmış anlar da, dəqiqələr də,
Qardaşım, insanmı dözər bu dərdə?!

Ürək neyləsin ki, nə var ki əldə,
Türbəti andıran bu qürbət eldə!

*Yunanıstan, 1984*

## GÜLÜŞ

Gözəl insan gözəl insanlara gülsün candan,
Gülüşü eybəcər insanlar uzaq vicdandan.

*1967*



* * *

Bir rəzalət var, oğul, daima nadanlıqda,
Qoyma nadanlığı vicdanına bir anlıq da!
Məncə, məslək gərək insanlara, yalnız məslək,
Məsləki olmayanın haqqı yox insanlıqda!..

*1982*

## CANLILAR CANIMIZDIR

Canlılar insanın üstünə düşməz,
Yaraqsız olanın üstünə düşməz.

Bir çocuq ağlıdır ağlı onların,
Varlığı varlığa bağlı onların.

Kin nə, ədavət nə, biləni yoxdur,
Var üçün, pul üçün öləni yoxdur.

Utansın onlara böhtan atanlar,
Yalaq şeirlərlə yalan satanlar.

Canlılar təkbətək vuruşur, oğlum,
Tutuşur, təkbətək boğuşur, oğlum.

Onlar sürülərlə vuruşmaz heç vaxt,
Kənardan birisi qarışmaz heç vaxt.

İkisi birinin üstünə düşməz,
Biri birisini görüb irişməz.

Canlılar hiylə nə, minnət nə bilməz,
Alış-veriş nədir, rüşvət nə, bilməz.

Gözəl canlılara sayğı gərəkdir,
Nəvaziş gərəkdir, qayğı gərəkdir.

Birinin burnunu qanatma, Xəndan,
Bir yol güllə nədir, daş atma, Xəndan!

Canlılar oylağı torpaq, asiman,
Onların düşməni olma heç zaman.

Dostu ol, sözümü başa düş mənim,
Onların düşməni mənim düşmənim.

Onlara qəfəsdə baxa bilmirəm,
O dəmir məhbəsdə baxa bilmirəm.

Canlılar ovqatı açıq-saçıqdır,
Ən böyük canlı da böyük çocuqdur.

Onlarsız qaralar qanımız bizim,
Gözəlim canlılar canımız bizim.

*1984*

## OLMALIDIR

Suçluluqdan qaça bilməz alçaq,
Suçlunun rəngi qaçıq olmalıdır.
Oğul, ərdəmli oğullar ancaq
Üzü ağ, alnı açıq olmalıdır!

*1984*

## GETDİ

29 yaşında
aləm yaratdı getdi,
Daşqalaq edənlərin
daşını atdı getdi.

Qanadlı köhləninin
üstünə yatdı, getdi.
Könüllərdə umulmaz
hisslər oyatdı, getdi.



Müşfiq bizim həyatda
başqa həyatdı, getdi,
Dahilərin pozulmaz
səfinə çatdı, getdi.

Səsini ulduzların
səsinə qatdı, getdi,
Ay kimi kölgələndi,
gün kimi batdı, getdi...

*1985*

## ŞAİRİM

Ərənlər sanma hissə qapılacaq, şairim,
Tarixdə sabah nələr yapılacaq, şairim!
Bir gün yalan qurğular çapılacaq, şairim,
Şerə dəyər verənlər tapılacaq, şairim!

## CIR ARILAR

Gültək arılar gülləri şəfqətlə gəzərlər,
Gizlincə pətək gözlərinə inci düzərlər.
Gül ətri gələr gül arısı yapdığı baldan,
Cır zövqü olanlar da qaçar cır arılardan.

*1985*

## MƏNİM DƏDƏM

Dədəmi istəyərdim,
Dədə Qorqud deyərdim –
Mən dədəm Hüseyinə.

Soyu Oğuz soyuydu,
Boyu Bayat boyuydu,
Bağlıydı özəyinə.

Səsiydi ozanların,
Baxmazdı insanların
Süsünə, bəzəyinə.

Bir vətən var deyərdi,
Ayırıblar, deyərdi,
Güneyi, quzeyi nə?!

Ulus imanı, dini,
Döndərmişdi evini
Babalar muzeyinə.

*1985*

## NƏ GƏRƏK

Doğmaya yad nə gərək,
Yad yasaq muradlıdır.

Çocuğa dad nə gərək,
Çocuqdursa, dadlıdır.

İnsan qanadı neylər,
Xəyalı qanadlıdır.

Yurd yolunda baş qoyan
Yolunda inadlıdır.

Ustada söyləməzlər
Ustad istedadlıdır.

Şairə ad nə gərək?
Şairdirsə, adlıdır!

*1985*



## GƏTİRDİN

Ay oğul, yolunu çox gözləmişdik,
Atana, anana şəfa gətirdin.
Bilsəydin, nə qədər sənsizləmişdik,
Sən bizə xoş gəlib, səfa gətirdin!

*1985*

## DƏRMƏ BU ÇİÇƏYİ

Dərmə bu çiçəyi, dərmə, ay qızım,
Çox da ki oxşayıb, qoxlayacaqsan.

Tutalım, aparıb güldana qoydun,
Sən onu nə qədər saxlayacaqsan?!

Bir sabah qarşında solan çiçəyin
Dərdiylə hər gecə yuxlayacaqsan.

Dərmə bu çiçəyi, dəymə, ay qızım,
Sən özün özünü oxlayacaqsan...

## QIRAT

Canlılar içində tarixə düşmüş
Yeganə canlı var, o da Qıratdır.
Qırat Koroğluyla qoşa döyüşmüş,
O bu yer üzündə ən məşhur atdır!

## İÇDƏN SƏSLƏR

Yurdumun bağlarının gülləridir ilmələrim,
Dədə Qorqud qopuzundan ucalır nəğmələrim.
Ulusun ovqatına qatmışam öz sovqatımı,
Duru qaynaqlarımızdan süzülüb kəlmələrim.

Mən bu yurda ulu bir yük daşımaqçün gəldim,
Gizlədilmiş yaralar var, qaşımaqçün gəldim.
Ulular eşqinə alçaqlara dağ çəkməkçün
Yaşadanlarla bir anlıq yaşamaqçün gəldim.

Bəxtimin ulduzuna yerdə qovuşdurdum Ayı,
Ey Rəfiq, ey Zəka, ey Xəndanın övlad harayı,
Gələcək gün, görəcəklər ki sənin şerində
Fars, ərəb sözləri yoxdur, üç adından savayı.

*İstanbul, 1984*

* * *

Haraya getsəm, oğul, ünvanımızdır bu vətən,
Bir ömür dastanımızdır bu vətən.

Adımızdır, sanımızdır bu vətən,
Əzəli şöhrətimizdir, şanımızdır bu vətən!

İrzimiz, namusumuz, vicdanımızdır bu vətən!
Duyğular ümmanımızdır bu vətən!

Yağılardan əbədi qorxusu yox, ürküsü yox,
Kim deyir ki, ucalan türküsü yox?!

Bayrağı al qanımızdır, qanımızdır bu vətən,
Dərdimiz, dərmanımızdır bu vətən!
Dilinin zövqünü kimlər bilməz,
Ruhunu, şövqünü kimlər bilməz?!

Atamızdır, anamızdır bu vətən,
Ulusun eşqi olan loğmanımızdır bu vətən.

Canımızdır, canımızdır bu vətən,
Can Azərbaycanımızdır bu vətən!

*1980*



## YURD UĞRUNDA

Yurddan ayrı iki gözüm görməsin,
Tale məni yad ellərə sürməsin,
Tanrı mənə qürbət dərdi verməsin,
Qürbət dərdi çəkiləsi dərd deyil.

Ulus eşqi duyğuları oxşayar,
Yurddaş olan yurd adını daşıyar,
Malbaş olan öküz kimi yaşayar,
Məncə, bu söz o qədər də sərt deyil.

Yurdsuzlara yurd yasaqdır həyatda,
Öz yurdundan kim uzaqdır həyatdı?!
Alnı açıq, üzü ağdır həyatda
O insan ki el yanında pərt deyil.

Yurd sevgisi başdan-başa ürəkdir,
Böyüyə də, kiçiyə də gərəkdir,
Yurddaş olmaq ən şərəfli diləkdir,
Şair olmaq, alim olmaq şərt deyil.

Ulu sevgi yurddur ulus oğluna,
Torpaq ana basar onu bağrına,
Rəfiq Zəka, öz yurdunun uğruna.
Öz canını əsirgəyən mərd deyil.

*1988*

## ŞEİR BULAQLARI

Kaş ki, hər gözəl şairin
Adına bir bulaq olsun.

Bu yurdu seyrə gələnlər
Bulaqlara qonaq olsun.

Dodaqlardakı türkülər
Axıb-axıb irmaq olsun.

Şairləri duymayanlar
Bulaqlardan uzaq olsun.

Bu torpağa yabançılar
Bu diləyə yasaq olsun.

Könlüaçıq, alnıaçıq
Ərlərin üzü ağ olsun.

Şairlərini yaşadan
Şair uluslar sağ olsun!

*Xızı, 1985*

## CƏFƏRİN EV MUZEYİNDƏ

Bu Xızı torpağı başqa bir aləm,
Cəfərin evində sevincli bir qəm.
Bu yoxsul daxmanı bu yer üzündə
Ən varlı saraya dəyişdirmərəm.

*Xızı, 1985*

## BU OĞULLAR

Bu oğullar ki bugün qurd kimi meydan sulayır,
Ulu yurddaşlara bir şanlı ömür arzulayır!

Bu ərənlər ki ulusdur odu, andı, əməli,
Onların dalğalanan türküsünü dinləməli!

Bu igidlər ki bugün meydana atlanmışlar,
Yerdə qartalların eşqiylə qanatlanmışlar!

Bu şəhidlər ki bugün qorxusu yox tanklardan,
İntiqam almağa toplanmış o daşnaklardan!



Bu qoçaqlar ki bugün canlı qopuzlardırlar,
Yirmidörd boydan olan şanlı oğuzlardırlar!

Bu oğuzlar ululaşmışlar, uluslaşmışlar,
Onların türküsünü duymaz uruslaşmışlar!..

*1989*

* * *

Alçalar daima bağrında çəkilməz acılar
Dar günündə ulusun daima şənlənmişlər.
Uca bayraq kimi gözlərdə ömürlük ucalar
Yurd ucalsın deyə, bayraqla kəfənlənmişlər...

* * *

Yurd eşqi insanların
Əlində yaraq kimi.

Könüllərin sevinci
Ulusdan soraq kimi.

Dünyada ən böyük dərd
Qürbətə düşənindir.

Qürbətdə keçən ömür
Keçər bir çıraq kimi.

*Fransa, 1984*

* * *

Nə gərək bir oğul, gərək olmasa,
Dünyada ərənlik çıxmaz hər əldən.
Əldən nə gələcək ürək olmasa,
Ürək olmayanda nə gələr əldən?!

*1984*

## QARA BAYRAQLAR

Qara günlər yaşayırkən Qarabağ
Yurdumuzda qara bayraqlara bax!

Bakının dərdini duy, arkadaşım,
Küçələrdən yol açan tanklara bax!

Ulusun bağrına bir-bir çəkilən
Dağ kimi mərmilərə, dağlara bax.

Bu müsibətləri alqışlayaraq,
Sevinən arxalı daşnaklara bax!

Mətbuat aləmi böhtan saçıyor,
Yazılan köhnə fırıldaqlara bax.

Dinləmə radio satqınlarını,
Televizordakı yaltaqlara bax.

Qanlı ordu sarıb ətrafımızı,
Ölkədə tapdalanan haqqlara bax!

Çıx şəhidlər gömülən parkımıza,
Gül-çiçəklə qapanan bağlara bax.

Ölülər intiqam istər bizdən,
Qisas eşqiylə yanan sağlara bax!

Ölümüzdən, dirimizdən çəkinən
Əlləri qanlı qurumsaqlara bax.

Millətin sərt baxışından büzüşən,
Gəzişən it kimi qorxaqlara bax!

Səs verir türklərə türk dünyası,
Ayla ulduzla yanan dağlara bax!



Çağlayır sel kimi sərhədlərimiz,
Bizlərə hay verən oylaqlara bax!

Bugünün qeyzi sabah çağlayacaq,
Sən bugündən gələcək çağlara bax!

Bir daha alçalacaq alçaqlar,
O zaman alçalan alçaqlara bax!

*1990*

## CAN AZƏRBAYCANIMIZ

Meydan sulayan qurd kimi oğlanlarımız var,
Qaplan südü içmiş dəli ceyranlarımız var,
Seyr etməyə cənnət kimi seyranlarımız var,
Hər qitədə, hər ölkədə heyranlarımız var.

Ey şanlı vətən, şöhrətimizsən, şanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

Ayrılmarıq, aləm bilir, öz torpağımızdan,
Qartallarımız cövlan edir oylağımızdan,
Alçaqlara şimşək saçılır hər dağımızdan,
Ay-yıldıza bax şölələnir bayrağımızdan!

Ey şanlı vətən, məsləyimiz, vicdanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

Bir türkü yayılmaqdadır eşsiz dilimizdən,
Zövq almada dünya obamızdan, elimizdən,
Bir öndərimiz var ki tutubdur əlimizdən,
Düşmənlər ayırmaz bizi can sevgilimizdən.

Ey şanlı vətən, sevgilimizsən, canımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

Biz ərsəyə çatdıq, ucalıb ərşə çatandan,
Minlərlə şəhid torpağın altında yatandan,
Minlərlə igid bayrağa qan rəngi qatandan,
Varlıqda bizə yox ulu bir nəsnə vatandan!

Ey şanlı vətən bayrağı, sönməz qanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

Biz yer üzünü dövrə vurub, hər yeri gəzdik,
Yüksəkləri alqışladıq, alçaqları əzdik,
Qoynunda mələklər dolu cənnətləri sezdik,
Sənsiz, ulusun türküsünü bəstələməzdik.

Ey şanlı vətən, sən əbədi ünvanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

Canlar sənə qurbandır, ömürlər sənə vurğun,
Neylər uca dağlardakı qartallara quzğun?!
Qorxun, Dədə Qorqud deyir alçaqlara, qorxun!
Tarixdə qalan abidəmiz var, adı Orxun!

Ey şanlı vətən, canlı şərəf dastanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan!

*Ankara, 1989*

## AĞLAYIM

Gözümdə kamımdır bu gün,
Mənim qiyamımdır bu gün,
Xəyal əyyamımdır bu gün,
Bir il tamamımdır bu gün,
Qara bayramımdır bu gün,
Eşqin yasına ağlayım.

O gündən gün keçib xeyli,
Pərvanə Məcnun, şam Leyli
Yanıb gileyli-gileyli,



Sevənlər sınıq taleli,
Yarın sınıb mənə meyli,
Mən sına-sına ağlayım.

Şəfqətim var, saçılmayan,
Zülmətim var, qaçılmayan,
Zillətim var, puç olmayan,
Həsrətimdən açılmayan,
Dərdinə əlac olmayan
Könül pasına ağlayım.

Yamandır hicran yarası,
Aşıqlərin macərası,
Sönüb baxtımın çırası,
Gedib gözümün qarası,
Ağlamağın yox çarası,
Qoy, qarasına ağlayım.

Nə həmdəmin var, ay Zəka,
Nə məlhəmin var, ay Zəka,
Batan gəmin var, ay Zəka,
Sənin kimin var, ay Zəka,
Minbir qəmin var, ay Zəka
Bilməm, hansına ağlayım?!

*1984*

## SƏNİN

Gecə-gündüz ürəyim yurdu anarkən vurdu,
Gecə-gündüz qopuzumdan duyulan dərd ulusum!
Mən nə yazdımsa sənindir, sən ey Odlar yurdu,
Sənin, ey sevgili yurdum, sənin, ey mərd ulusum!

*1969*

## O GÜN

Gələcək bir gün, əminəm, o gözəl gün gələcək,
Yurdumun haqlı səsi haqqa qədər yüksələcək!
Olacaq özgür olan millətim özgürlüyə eş,
Doğacaqdır üfüqümdən o sabah şanlı günəş!
O günəş nurunu yurddaşlara göydən saçacaq,
Yaslı üzlər güləcək, paslı könüllər açacaq!
Gələcəkdir, gələcəkdir o böyük gün, gələcək,
Görəcək millətim alçaqları ölgün, gələcək!..

*1964*

* * *

Dağların qurdlarıdır qartallar
İlbəil müjdə kimi artarlar.
Dan yerindən günəşi görmək üçün
Zülməti parçalayar, yırtarlar.

*1984*

* * *

Qulaqları bir səs kimi dolduran
Can xitabı olmalıdır şairin.
Ciyərləri nəfəs kimi dolduran
Bir rübabı olmalıdır şairin.

*1984*

## UMULMAZ ZƏFƏR

Yoxdu ərdəmli oğullarda o gün hey sanki,
Güllələrdən gərilən duyğuları key sanki,
Güllələbarana tutulmuşdu dəniz, göy sanki,
Yüksəlirdi göyə övladlarımız hey sanki,



Ruhları dalğalanan öfkəli bir ney sanki,
Qudurub cövlan edirdi neçə min ley sanki,
O gecə mərmilərin yapdığı bir leysan ki,
Hər şeyin bitdiyi gün başladı hər şey sanki!..

*1990*

* * *

Ey oğul, zərrəcə qansızlaşma,
Dostuna qarşı amansızlaşma,
Dini dəstəklə, imansızlaşma,
Qara bir daş kimi cansızlaşma,
Çağla, gurla, həyəcansızlaşma!

*1987*

* * *

Tarixdə tufanlar, üsyanlar olmuş,
Cahangirlər olmuş, aslanlar olmuş,
Tarix insanları keçdiyi yoldur,
Tarixi yaşadan insanlar olmuş.

*1987*

* * *

Varlıqda açılmaz möcüzələr var,
Dahilər yaşayıb, bundan halıyam,
Dünyaya göz yumub milyon sənətkar,
Ey Zəka, mən neçin sağ olmalıyam?!.

*1986*

## ARAZAM KÜRƏ BƏNDƏM

İçimdə bir bürkü var,
Könlümdə bir türkü var,
Gözümdə, aləm bilir,
Nə qorxu, nə hürkü var.

Çatılıb qaşım mənim,
Ağırdır daşım mənim.
Yolumu bağlayanla
Bitməz savaşım mənim.

Bu yer mənim yerimdir,
Demə, Allah kərimdir!..
Bu savaş bir savaş ki,
Sonu ölüm-dirimdir!

Arazam, Kürə bəndəm,
Qarabağam, Mərəndəm,
Təbrizimin qəmiylə
Bakımda dərdməndəm.

Kürəm, Araza bəndəm,
Türkülü saza bəndəm,
Qaraqış mənə neylər?
Günəşli yaza bəndəm

Qar yağıbdır dizəcən,
Bakıdan Təbrizəcən,
Yolumu gözləyən var,
Dənizdən dənizəcən.

Ayrılığa varalı
Araz Kürdən aralı,
Dindirmə, qan ağlaram,
Yaralıyam, yaralı.



Bu çilə yaman çilə,
Çilə, bülbülüm, çilə,
Yurd ərmağan deyildir
Ki ondan vaz keçilə...

Umudları qırdılar,
Qəlbləri sıyırdılar,
Bir ulusu güneyə,
Quzeyə ayırdılar.

Nə əcdadlar ayırdı,
Nə övladlar ayırdı,
Bizə doğmalar bilir,
Bizi yadlar ayırdı.

Arazam mən, Kürəm mən,
Bəndimi sökürəm mən,
Vay o gündən ki burda
Sevincdən hönkürəm mən.

Araz Kürləşəcəkdir,
Ulus birləşəcəkdir,
O gün canım yurduma
Cahan yerləşəcəkdir!..

*1985*

# NƏ ZAMAN OLSA

## ŞAİRİN YAZDIĞINI

Şair olan gerçəyi yalana yoza bilməz,
Kədərə tutulunca sevincdən yaza bilməz,
Şair olan yolunu heç zaman aza bilməz,
Şairin yazdığını fələk də yoza bilməz...

*1986*

## ZALIM OVÇU

Zalım bir ovçunun zalım övladı
Ceyran yavrusunu düzdə qovladı,
Qovladı tüfənglə avtomobillə,
Ovladı mələyi iblis, ovladı...

*1986*

## ƏRZURUMUN GƏDİYİNƏ VARANDA

Ərzurumun gədiyinə varanda,
Türkü deyib, Kərəm kimi alışdım,
Göz yaşımı gizləməyə çalışdım,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda,
Gördüm qartal oylağına varmışam,
Quzğunların öfkəsini yarmışam,
Ərzurumun gədiyinə varanda.



Ərzurumun gədiyinə varanda,
Yoxa çıxdı içimdəki darlığım,
Bu varlığa ayna oldu varlığım,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda.
Göy gurladı, şimşək çaxdı, sel axdı,
Onda gördüm bölük-bölük el axdı,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda,
Öz əlimlə öz yaramı saranda,
Gözlərimdə yaylaq oldu aran da,
Ərzurumun gədiyinə varanda.

*İstanbul, 1984*

## GƏLƏR

Yamanlıq eyləyən abdal olmalı,
Yaxşılıq igidin əlindən gələr.
Qartalın yavrusu qartal olmalı,
Yarasa yarasa belindən gələr.

Günəşsiz, dünyaya şəfəq saçılmaz,
Ulduzdan qaçılmaz, aydan qaçılmaz,
Heyvanın aləmdə dili açılmaz,
İnsana nə gəlsə dilindən gələr.

Yadlara yaranmaq qeyrətdən deyil,
Bu illət sağalan illətdən deyil,
Şairin şöhrəti qürbətdən deyil,
Vətənindən gələr, elindən gələr.